No: 01 2026
https://doi.org/10.64400/ea26-01-30
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN-RUSİYA DÖVLƏT SƏRHƏDİ VƏ ONUN TƏHLÜKƏSİZLİYİ

**Qərib ƏSGƏROV**
Dövlət Sərhəd Xidməti Akademiyası, Bakı, Azərbaycan
**Yazışılan müəllif: qerib.azadoglu@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:** Azərbaycan, Rusiya, strateji tərəfdaşlıq, millimaraqlar, sərhəd təhlükəsizliyi, dövlət sərhədi,sərhədboyu rayon

**XÜLASƏ**
Məqalədə Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədinin təhlükəsizliyi və ona təsir edən məsələlər araşdırılmışdır. Əsas məqsəd Azərbaycanın şimal sərhədinin təhlükəsizliyinə təsir edən təhdidləri müəyyən edərək təhlil etmək və hər iki dövlətin sərhəd təhlükəsizliyi sahəsində kəsişən maraqlarının olduğu göstərməkdir. Məqalədə göstərilir ki, hər iki dövlət arasında şəffaf sərhədin olmasına və sərhəd münaqişələrinin çox az olmasına baxmayaraq, Azərbaycanın şimal sərhədlərinin təhlükəsizliyi hər zaman onun milli təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Məqalədə göstərilir ki, Azərbaycan–Rusiya sərhədinin təhlükəsizliyi ekstremizm, terrorizm və qeyri-qanuni silahlı qrupların hərəkətinin qarşısının alınmasına, eləcə də egionda sabitliyin və proqnozlaşdırıla bilən təhlükəsizlik mühitinin qorunmasına xidmət edir.

## GİRİŞ

Sərhəd təhlükəsizliyi müasir dövrdə milli təhlükəsizliyin əsas təyinedici istiqamətlərindən birini təşkil edir. Dövlət sərhədlərinin təhlükəsizliyi ölkənin suverenliyi, siyasi və iqtisadi müstəqilliyi ilə birbaşa bağlıdır. Müxtəlif xarici müxtəlif təhdidlərin, iqtisadiyyatı sarsıdan qaçaqmalçılıq hallarının, narkotik və psixotrop maddələrin qeyri-qanuni keçirilməsi kimi müxtəlif transmilli cinayətkarlıq hallarının say baxımından artması sərhəd təhlükəsizliyinin əhəmiyyət dərəcəsini daha da artırmışdır.

İnteqrasiya proseslərinin dərinləşdiyi müasir dövrdə müxtəlif cinayətkar qruplar öz məqsədləri naminə şəffaflaşmış dövlət sərhədlərindən istifadə etməyə çalışırlar. Son dövrlər hətta pilotsuz uçuş aparatlarından da istifadə edərək dövlət sərhədlərini pozurlar. Təəssüflər olsun ki, bəzi hallarda həmin təşkilatlar və şəxlər müəyyən dövlətlər tərəfindən də dəstəklənirlər. Bu kimi hallar sərhəd təhlükəsizlynin əhəmiy-yətini daha da artırmışdır.

Dahi öndər Heydər Əliyev deyirdi: ”Sərhəd hər bir ölkənin müstəqilliyini, suverenliyini təsdiq edən amillərdən biridir.Hər bir ölkənin sərhədinin toxunulmazlığı həm ölkə üçün, həm də beynəlxalq hüquq normaları üçün əsas prinsiplərdən biridir” [1,s.190]

## ƏSAS MƏTN

***Sərhəd təhlükəsizliyi sahəsində Azərbaycan-Rusiya münasibıtləri:*** Cənubi Qafqazda geosiyasi cəhətdən əlverişli məkanda yerləşən Azərbaycan 7 dövlətlə 3463 kilometr uzunluğunda sərhədlərə malikdir. Sərhəd məkanında təhlükəsizliyin təmin olunması 1991-ci ildə özünün dövlət müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında dayanan əsas məqsədlərdən biri oldu.




*Şəkil 1. Azərbaycanın sərhədboyu inzibati rayonları*

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra milli suverenliyin möhkəmləndirilməsi, dövlətin əsas rəmzlərindən olan dövlət sərhə-dinin etibarlı mühafizəsinin təşkili, qonşu ölkələrlə dövlət sərhədlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsas prioritet sahələrindən biri oldu [2].

Həmsərhəd ölkələr arasında ilk olaraq, Azərbaycan şimal sərhədnin-Rusiya ilə dövlət sərhə-dinin müəyyənləşdirlməsi prosesinə başladı. Həmsərhəd Rusiya Federasiyası ilə dövlət sərhədinin tam dəqiqləşdirilməsi, sərhəd məsələlərində razılaşmanın əldə edilməsi və təhlükəsiz sərhəd mühitinin təmin edilməsi hər iki ölkənin milli maraqlarına tam uyğun idi. Hər iki ölkənin milli təhlükəsizliyi ilə yanaşı bu regional təhlükəsizlik baxımından da çox əhəmiyyətli idi. Çünki, Azərbaycan–Rusiya sərhədi Cənubi Qafqazla Şimali Qafqazı birləşdirən strateji xəttdir. Bu sərhədin təhlükəsizliyi regionda sabitliklə yanaşı tərəflərin istənilən növ təhdidlərdən qorunmasına xidmət edir. Hər iki dövləti birləşdirən və regiondan keçən nəhəng enerji və nəqliyyat infrastrukturu sərhəd təhlükəsizliyindən birbaşa asılıdır.

Azərbaycan şimaldan Rusiya ilə uzunluğu 531,052 kilometr təşkil edən dövlət sərhədlərinə malikdir ki, onun da 366,3 kilometrini quru, 24 kilometrini çay və 140,7 kilometrini isə dəniz sərhədləri təşkil edir. Rusiya ilə sərhəddə Azərbaycanın səkkiz inzibati rayonu- Balakən, Qax, Zaqatala, Şəki, Oğuz, Qəbələ, Qusar, Xaçmaz rayonları (390.3 kilometr) yerləşir.

Müstəqilliyin ilk illərindən başlayaraq iki dövlət arasında dövlət sərhədlərinin delimitasiyası ilə bağlı məsələlər hər zaman müvafiq qurumlarının diqqət mərkəzində olmuşdur. Mütəmadi olaraq bu istiqamətdə danışıqlar aparılsa da, yalnız 2010-cu il sentyabrın 3-də “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında” dövlətlərarası müqavilə imzalandı. Bu müqavilə hər iki dövlətin beynəlxalq hüququn ərazi bütövlüyü və sərhəd toxunulmazlığı prinsiplərini rəhbər tutaraq sərhəd fəaliyyəti sahəsində əməkdaşlığını nəzərdə tuturdu. Dövlət sərhədinin dəqiq koordinatlarının və iki dövlət arasında sərhədi başlanğıc nöqtəsinin müəyyənləşdirildiyi bu müqavilənin imzalanması ilə delimitasiya prosesi tam yekunlaşdı [3].

2018-ci ilin fevral ayının 22-də Qusar rayonunun Zuxul kəndi ərazisində Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədində ilk sərhəd nişanı quraşdırıldı [3].



*Şəkil 2.Azərbaycan-Rusiya dövlət sərhədində qurulan sərhəd nişanı*

Hər iki dövlət sərhədi şəffaf sərhəd hesab olunur. Xırda sərhəd insidentlərini nəzərə almasaq, Rusiya ilə olan dövlət sərhədlərində ciddi münaqişəli vəziyyət müşahidə olunmur. Hər iki ölkənin Xəzərdə və quru sərhədlərində ortaq təhlükəsizlik maraqları, o cümlədən transsərhəd cinayətlərinə qarşı mübarizə aparmaq istəyi sərhəd mühafizəsi sahəsində birgə əməkdaşlığını zəruri edir. Xüsusən də, Şimali Qafqazda ayrı-ayrı dini, ekstremist qruplaşmaların tez-tez baş qaldırması və onların təsirinin Azərbaycana sirayət etməsi ehtimalı dövlət sərhədlərinin mühafizəsinin koordinasiyalı şəkildə təşkilini zəruri edir [4, s.42].

Xəzərdə su sərhədlərinin müəyyən edilməsi və onun təhlükəsizliyi Azərbaycan- Rusiya arasında ən həssas məsələlərdən biri olmuşdur. Hüquqi statusla bağlı məsələnin uzun müddət açıq qalması nəinki Rusiya, eləcə də bütün sahilyanı dövlətlər arasında bir sıra sərhəd problemlərinin yaranmasına səbəb olmuşdur. Lakin, Xəzər dənizində ortaq maraqların mövcudluğu Azərbaycan ilə Rusiya arasında hər hansı sərhəd münaqişəsi baş verməsinə imkan verməmişdir. Dövlət Sərhəd Xidmətinin hesabatlarının təhlili dövlət sərhədlərinin pozulması və qaçaqmalçılıq halları daha çox Xəzər dənizinin cənubunda qeydə alındığını göstərir. Rusiya Federasiyası ilə Xəzər dənizində dövlət sərhədinin pozulması hallarına demək olar ki, çox az hallarda təsadüf edilir [5].

Dövlət sərhədlərinin delimitasiyası və Xəzərdə dəniz sərhədlərinin müəyyən edilməsi ilə bağlı iki dövlət arasında 1997-ci ilin iyulun 3-də ilk razılaşma imzalandı. Bu razılaşma tərəflərin Xəzərdə qarşılıqlı şəkildə milli maraqlara hörmət göstərəcəyini bir daha təsdiq etdi. 2018-cil avqustun 13-də Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasından sonra dənizdə dövlət sərhədləri hər iki tərəf arasında tam dəqiqləşdirildi.

Son dövrlərdə sərhəd fəaliiyəti sahəsində əldə olunan müsbət nəticələrə baxmayaraq bir sıra təhdidlər öz mövcudluğunu saxlayır. Bu təhdidlər aşağıdakılardır:

- qanunsuz silahlı dəstələr tərəfindən sərhədyanı ərazilərdə terrot aktları baş vermə ehtimalının mövcudluğu;
- mütəşəkkil cinayətkar qrupların və müxtəlif dini ekstremist təşkilatların sərhədlərin şəffaflığından sui-istifadə istifadə etmək cəhdlərinin artması;
- Xəzər dənizində neft yataqlarına və digər təbii ehtiyatlardan istifadə ilə bağlı milli maraqlar əleyhinə diskriminasiya hallarının hər an baş qaldırma ehtimalı:
- iki ölkə arasında həm dənizdə, həm də quruda effektiv nəqliyyat şəbəkəsinin təhlükəsizliyinə təhdidlərin mövcudluğu;

Bu kimi təhdidlər hər iki dövlətin müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini, sərhəd mühafizəsinin təşkili zamanı operativ informasiya mübadiləsinin təşkilini, eləcə də birgə təlimlərin sayının çoxaldılmasını zəruri edir.

Son illərdə sərhəd təhlükəsizliyi ilə bağlı tərəflər arasında bir sıra razılaşmalar imzalanmış və bundan irəli gələrək keçirilən birgə tədbirlərin sayı daha da artmışdır. Təsdiqlənmiş tədbirlər planlarına uyğun olaraq müvafiq qrumlar arasında əməkdaşlıq əlaqələri yaradılmışdır. Hazırda

Bakı və Həştərxan limanlarına sərhəd gözətçi gəmi-lərinin mütəmadi olaraq dostluq səfərləri təşkil olunur. Bu görüşlərdə əsas məqsəd hər iki ölkənin sərhəddə milli maraqlarının təmin olunması, xüsusən də dövlət sərhədində qaçaqmalçılıq, qeyri-leqal miqrasiya və digər transsərhəd cinayətkarlıq hallarının qarşısının alınması sahəsində fikir mübadiləsi aparmaqdır.

Bununla yanaşı sərhədyanı rayonlarının ərazisində kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər də mütəmadi keçirilir. Tədbirlərin əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarətdir.

Azərbaycan və Rusiyanın sərhəd fəaliyyəti sahəsində əməkdaşlığı bu gün həm də regional səviyyədə inkişaf edir. Xüsusilə, Xəzər dənizi regionunda və Şimal-Cənub nəqliyyat layihəsində olan ümumi maraqlar hər iki ölkəni bir-birinə yaxınlaşdırır. Bugün Cənubi Qafqazda sabitliyin qorunub saxlanılması hər iki dövlət üçün prioritet hesab olunur. Bu amillər heç şübhəsiz ki, dövlət sərhədlərində təhlükəsizlik mühiti ilə birbaşa bağlıdır. [6].

## NƏTİCƏ

Təhlillər nəticəsində belə qənaətə gəlmək olur ki, hər iki dövlət arasında təhlükəsi sərhədlərin təmin olunması ikitərəfli məsələ olmaqla yanaşı, eyni zamanda Cənubi Qafqazda güc balansının, regional əməkdaşlıq mexanizmlərinin və uzunmüddətli sülhün qorunmasına töhfə verir. Aparılan təhlillər göstərir ki, Azərbaycan - Rusiya dövlət sərhədləri boyu həmsərhəd rayonlarda yerli əhali arasında maarifləndirici tədbirlərin miqyasının daha da artırılması bu sahədə irəlləyişin daha da artırılmasına kömək etmiş olar.Nəzərə almaq lazımdır ki,hər iki tərəfdə yaşayan əhalinin bir-birinə yaxın olması, hətta onlar arasında qohumluq münasibətlərinin olması nə qədər müsbət hal olsa da bir o qədər də dövlət sərhədinin pozulması risklərini artıtrır. Sərhədboyu rayonlarda yaşayan yerli əhali ilə işə hər zaman həssas bir məsələ kimi yanaşılmalı, həmin ərazilərdə sosial infrastrukturun mütəmadi yenilənməsi, eləcə də əhalinin rifah halının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial siyasəti xüsusi vurğulamaq lazımdır. Son dövrlərdə Rusiya ilə həmsərhəd rayonlarda həyata keçirilən sosial-infrastruktur lahiyələr, xüsusən də yeni turizm obyektlərinin açılması yerlərdə əhalinin rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərməklə yanaşı, sərhəd təhlükəsizliyinə risklərin də miqyasının azalmasına səbəb olmuşdur. Bütün bunlarla yanaşı sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığın intensivləşdirilməsi və operativ məlumat mübadiləsinin həyata keçirilməsi çox vacibdir. Bu məqsədlə birgə informasiya mərkəzinin yaradılması məqsədəuyğun olardı. Dövlət sərhədinin mühafizəsində, eləcə də sərhəd buraxılış məntəqələrində müasir texniki vasitələrdən istifadə imkanları qarşılıqlı olaraq mütəmadi təkmilləşdirilməlidir.

## ƏDƏBİYYAT


1. Əliyev, H: Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] /H.Əliyev. bur.məsul akademik R.Ə.Mehdiyev.-Bakı: Azərnəşr, -c.7,-1998, -520 s
2. https://dsx.gov.az/xeber/592
3. .https://azxeber.com/az/azerbaycan-rusiya-serhedinde-ilk-serhed-nisanı-qurasdırıldi-fotolar/sosial/
4. Svyatoçovski, T. Rusiya və Azərbaycan sərhədyanı bölgə keçid dövründə./ T.Svyatoçovski .-Bakı: Xəzər unuversiteti, - 2000, - 369 s.
5. https://dsx.gov.az. /xeber/520
6. https://www.yap.org.az/az/view/news/87187/azerbaycan-rusiya-munasibetleri-regional-tehlukesizlik-ve-iqtisadi-emekdashliq-perspektivleri

## РЕЗЮМЕ

## ГОСУДАРСТВЕННАЯ ГРАНИЦА, МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И РОССИЕЙ И ЕЕ БЕЗОПАСНОСТЬ

**Гариб Асгаров**

В статье рассматриваются вопросы безопасности государственной границы Азербайджанской Республики с Российской Федерацией. Были проанализированы угрозы, влияющие на безопасность северной границы Азербайджана, и подчеркнуто, что интересы обоих государств в сфере безопасности границ совпадают. В статье показано, что, несмотря на прозрачность границы между двумя государствами и крайне низкое количество пограничных конфликтов, безопасность северных границ Азербайджана всегда имела большое значение для его национальной безопасности. В статье утверждается, что безопасность азербайджано-российской границы служит предотвращению экстремизма, терроризма и передвижения незаконных вооруженных группировок, а также поддержанию стабильности и предсказуемой обстановки в сфере безопасности в регионе.



**Ключевые слова:** *Азербайджан, Россия, стратегическое партнерство, национальные интересы, безопасность границ, государственная граница, приграничный регион*



## SUMMARY

## AZERBAIJAN-RUSSIA STATE BORDER AND İTS SECURITY

**Garib Askerov**

The article examines the issues of security of the state borders of Azerbaijan- Russian. The threats affecting the security of the northern border of Azerbaijan are analyzed and it is emphasized that both states have overlapping interests in the field of border security. The article shows that despite the transparent border between the two states and the very low number of border conflicts, the security of the northern borders of Azerbaijan has always been of great importance in terms of its national security. The article states that the security of the Azerbaijani-Russian border serves to prevent extremism, terrorism and the movement of illegal armed groups, as well as to maintain stability and a predictable security environment in the region.



**Keywords:** *Azerbaijan, Russia, strategic partnership, national interests, border security, state border, border region*